**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# ƏLİ NƏZMİNİN YARADICILIĞI XX ƏSRİN ƏVVƏLLƏRİ REALİST AZƏRBAYCAN ƏDƏBİYYATI KONTEKSTİNDƏ

İxtisas: 5716.01 – Azərbaycan ədəbiyyatı

Elmi sahəsi: Filologiya

İddiaçı: **Aygün Əli qızı Fərəcova**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2024**

Dissertasiya işi Gəncə Dövlət Universitetinin "Azərbaycan və dünya ədəbiyyatı" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: filologiya elmləri doktoru, professor **Alxan Bayram oğlu Məmmədov**

Rəsmi opponentlər: filologiya elmləri doktoru, professor **Allahverdi Məhərrəm oğlu Məmmədov**

filologiya elmləri doktoru, dosent **Şahbaz Şamı oğlu Musayev**

Filologiya üzrə fəlsəfə doktoru, dosent **Afaq Mirzə qızı Əliyeva**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi nəzdində fəaliyyət göstərən ED 1.31 – Dissertasiya şurası

Dissertasiya şurasının sədri: __________ AMEA-nın həqiqi üzvü, filologiya elmləri doktoru, professor **Rafael Baba oğlu Hüseynov**

Dissertasiya şurasının elmi katibi: __________ filologiya üzrə fəlsəfə doktoru **İlhamə Mürsəl qızı Gültekin**

Elmi seminarın sədri: __________ filologiya elmləri doktoru, professor **Leyla Məcid qızı İmaməliyeva**

# GİRİŞ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** XX əsr Azərbaycan realist və romantik ədəbiyyatının, o cümlədən mətbuatının inkişafında və maarifçi düşüncənin milli ideologiya səviyyəsində formalaşmasında XIX əsrin sonu, XX əsrin əvvəllərində meydana çıxan sosial-mədəni və ictimai-ədəbi yenilik meylləri əsas rol oynamışdır. Bu hərəkatın aparıcı şəxsiyyətləri özlərinin ictimai, ədəbi və mədəni fəaliyyətləri ilə milli bədii düşüncənin inkişafına önəmli töhfələr vermişlər. Belə ədəbi tarixi şəxsiyyətlərdən biri də Cəlil Məmmədquluzadənin "ikinci Sabirimiz" adlandırdığı məşhur şair və publisist Əli Nəzmi Məhəmmədzadədir. Əli Nəzmi yaradıcılığının mövzu dairəsi əhatəli olduğu kimi ideya-bədii xüsusiyyətləri də çoxçalarlıdır.

Onun ədəbi irsi özündə dövrünün ideya-estetik axtarışlarını və yaradıcılıq uğurlarını əks etdirir. Ona görə Azərbaycan ictimai-ədəbi düşüncəsinin XX əsrin əvvəllərindəki mənzərəsinin bütövlükdə dərki üçün Əli Nəzmi yaradıcılığının geniş və sistemli tədqiqi vacibdir. Doğrudur, milli ədəbiyyatşünaslıqda XIX əsrin axırları, XX əsrin əvvəllərində yazıb-yaradan ədəbi şəxsiyyətlər haqqında çoxsaylı məqalə, monoqrafiya və dissertasiyalar yazılmışdır. Həmin elmi araşdırmaların Əli Nəzmiyə həsr edilmiş örnəkləri arasında Cəlil Məmmədquluzadənin "Sijimqulunamə"yə yazdığı müqəddimə[1], professorlar Abbas Zamanov[2], Mir Cəlal[3], Əziz Şərif[4], Firudin Hüseynov[5], Nazim Axundov[6], Cəfər Xəndan[7], Əzizağa Məmmədov[8],

---

[1] Nəzmi, Ə.M. Sijimqulunamə / Ə.Nəzmi – Bakı: Azərnəşr, – 1927, – 508 s.

[2] Zamanov, A. Əli Nəzmi // Əli Nəzminin "Seçilmiş əsərləri"nə müqəddimə.– Bakı: Azərnəşr, – 1959, – s. 3-16

[3] Mir Cəlal. Azərbaycanda ədəbi məktəblər (1905-1917) / Mir Cəlal, elmi red., T.Mütəllimov. − Bakı, Ziya-Nurlan, − 2004. − 392 s.

[4] Şərif Ə. Odlu sətirlər // "Ədəbiyyat" qəzeti, – 1948, 12 yanvar

[5] Hüseynov, F. Görkəmli satirik // Əli Nəzminin "Şeirlər" kitabına ön söz. – Bakı: Azərnəşr, – 1963, – s. 3-8, Hüseynov, F. Həqiqi "Molla Nəsrəddin" şairi. // Əli Nəzminin "Seçilmiş əsərləri"nə müqəddimə. – Bakı: Yazıçı, – 1979, – s. 5-18.

[6] Axundov N. Görkəmli satirik. // "Kommunist" qəzeti, – 1958, № 186

[7] Hacıyev, C. XX əsr Azərbaycan ədəbiyyatı tarixi: Ali məktəblər üçün dərslik / C.Hacıyev, red., M.C.Cəfərov. – Bakı: Azərbaycan Universiteti, − 1955. − 434 s.

Tərlan Novruzov[9], Alxan Bayramoğlu[10], dosent Elmira Qasımova[11], tədqiqatçılardan Əmin Abid[12], Əli Nazim[13], Qulam Məmmədli[14] və başqalarının məqalə və portret-oçerkləri ilə yanaşı, Firidun Hüseynovun 1964-cü ildə müdafiə etdiyi "Əli Nəzminin yaradıcılığı" adlı namizədlik dissertasiyası da vardır. Qeyd edək ki, F.Hüseynov 1970-ci ildə həmin tədqiqatını genişləndirərək "Əli Nəzmi" monoqrafiyasını çap etdirmişdir[15]. Bundan başqa, şair-publisistin əsərlərinin yeni nəşrləri, o cümlədən "Keçmiş günlər" adlı mənzum xatirələrinin kitab şəklində oxuculara çatdırılması,[16] realist ədəbi hərəkat, o cümlədən M.Ə.Sabir poeziya məktəbi haqqında qələmə alınan yeni-yeni elmi məqalə və digər nəşrlərdə (müntəxəbat, dərs vəsaiti və s.) Ə.Nəzmi şəxsiyyətinə və yaradıcılığına da ayrıca diqqət yetirilib yer ayrılması, söz yox ki, onun poetik və publisistik irsinin ictimai-ədəbi və sosial-tarixi dəyərinin kifayət qədər yüksək və müasirlik baxımından aktual olmasından irəli gəlir. Ancaq, bütün bunlarla yanaşı, F.Hüseynovun yuxarıda qeyd etdiyimiz namizədlik dissertasiyası istisna olmaqla, Əli Nəzmi haqqında indiyədək xüsusi elmi tədqiqat işi aparılmamışdır. Odur ki, Məhəmmədzadə Əli Nəzmi irsinin mümkün qədər bütövlükdə və milli humanitar düşüncənin hazırkı inkişafı və tələbləri səviyyəsində araşdırılmasına böyük ehtiyac vardır. Mövzunun aktuallığını şərtləndirən mühüm cəhət də məhz yuxarıda qeyd etdiyimiz məsələlərdir.

---

[8] Məmmədov, Ə. Görkəmli satirik şair // "Ədəbiyyat və incəsənət" qəzeti, – 1958, № 32

[9] Novruzov, T. Sabir ədəbi məktəbi / T.Novruzov. – Bakı: Yazıçı, – 1992, – 216 s.

[10] Bayramoğlu, A. Əli Nəzmi. // A.Bayramoğlu. "Azərbaycan ədəbiyyatı tarixi". – Bakı: Elm, – c.6. – 2022, – s.434-459.

[11] Qasımova, E. Ön söz. // Əli Nəzminin "Keçmiş günlər" əsərinə müqəddimə. – Bakı: Adiloğlu, – 2006, – s. 3-10.

[12] Abid, Ə. Sijimqulunamə // – Bakı: "İnqilab və mədəniyyət" jurnalı, – 1928, № 3, – s. 48-52

[13] Nazim, Ə. Ədəbi cığırdaşlarımız haqqında. // – Bakı: "İnqilab və mədəniyyət" jurnalı, – 1928, № 11-12, – s. 50

[14] Məmmədli, Q. Əli Nəzmi // Axşam qəzeti, – 1958, № 178

[15] Hüseynov, F. Əli Nəzmi / F.Hüseynov. – Bakı: Gənclik, – 1970, – 204 s.

[16] Nəzmi, Ə. Keçmiş günlər (xatirələr) / Ə.Nəzmi – Bakı: Adiloğlu, – 2006, 176 s.

**Tədqiqatın obyekti və predmeti.** Dissertasiyanın əsas tədqiqat obyekti XX əsrin əvvəllərində Azərbaycanda ictimai-mədəni və ədəbi hərəkatda fəal mövqeyi olan şair və yazıçılarımızın fəaliyyəti, mətbuat orqanları, bu mətbuat orqanlarında dərc olunun ədəbi-bədii nümunələr, o cümlədən Əli Nəzminin şəxsiyyəti və qələm məhsullarıdır. Bunlardan başqa, bu mövzu ilə əlaqəsi olan bir sıra araşdrma və məqalələr də əsas və yardımçı obyekt dərəcəsində işlənilmişdir. Əli Nəzmi, o cümlədən XX əsrin əvvələri Azərbaycan realist ədəbiyyatı və mətbuatına dair müxtəlif dövrlərdə dərc olunmuş məqalələr və nəşr olunmuş kitablar tədqiqatın predmetini təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi Məhəmmədzadə Əli Nəzminin yaradıcılığını XX əsrin əvvəlləri realist Azərbaycan ədəbiyyatı kontekstində araşdırmaq və inkişaf yollarını açıqlamaqdır. Qarşıya qoyulan məqsədə aşağıdakı zəruri vəzifələrin yerinə yetirilməsi ilə nail olunmağa çalışılmışdır:

- Son araşdırmalara istinadən XX əsrin əvvəllərindəki ədəbi mühit və mətbatin yeni inkişaf mərhələsi haqqında məlumat verib prosesi müasirlik nöqteyi-nəzərdən qiymətləndirmək;
- Əli Nəzminin həyat yolunu, əsərlərinin nəşri və tədqiqi tarixini araşdırmaqla onun ədəbi-ictimai mühitdəki mövqeyini müəyyənləşdirmək;
- Sənətkarın lirik şeirlərinin mövzu dairəsini müəyyənləşdirib onların ideya-bədii xüsusiyyətləri barədə məlumat vermək;
- Əli Nəzmini görkəmli “Molla Nəsrəddinçi” şair kimi tədqiq edib onun satiralarının əsas mövzularını müəyyənləşdirmək;
- Sənətkarın pubilstik əsərlərini tədqiq etməklə onun “felyetonlar ustası” olduğunu faktların dili ilə əsaslandırmaq;
- Əli Nəzminin “Keçmiş günlər” xatirəsini memuar ədəbiyyatının mükəmməl nümunəsi kimi tədqiq etmək;
- Əli Nəzminin sənətkarlıq xüsusiyyətlərini araşdırmaqla onun Ana dili, cəmiyyətin mənəvi-əxlaqi səviyyəsinin yüksəldilməsi məsələlərinin fəal işıqlandırılmasında, yaradıcılıq fəallığında, beynəlxalq siyasi hadisələrə, yerli tərəqqi əlamətlərinin təqdiri və s. sahədə xüsusi fəallıq göstərməsini diqqətə çatdırmaq.

**Tədqiqatın metodları.** Dissertasiya XX əsrin əvvəlləri realist Azərbaycan ədəbiyyatı kontekstində araşdırılmış, Əli Nəzminin qələm nümunələrinin müqayisəli tipoloji təhlili metodu əsasında yazılmışdır. Tədqiqatda analiz-sintez metodunun imkanlarından istifadə edilmiş, ədəbiyyat tarixi və ədəbiyyatşünaslığımızın aparıcı elmi qənaətləri də metodoloji əsas kimi götürülmüşdür.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Əli Nəzminin yaradıcılığını XX əsrin əvvəlləri realist Azərbaycan ədəbiyyatı kontekstində tədqiq etmək və mövzunu tam olaraq əhatə etmək üçün müdafiəyə çıxarılan əsas müddəalar aşağıdakılardır:

- Əli Nəzminin şəxsiyyəti və yaradıcılığı Azərbaycan realist ədəbiyyatı və maarifçi düşüncə müstəvisində formalaşmış, sənətkarın tərbiyəvi-əxlaqi və milli elementlərlə zəngin olan əsərləri yaşadığı dövrün mədəni-mənəvi proseslərinin inkişafında əhəmiyyətli rol oynamışdır;
- Əli Nəzminin yaradıcılıq diapazonu, mövzu dairəsi genişdir. O, cəmiyyətdə mövcud olan hər bir eybəcərliyi, çatışmazlığı, yenilik və tərəqqiyə mane olan sosial-mənəvi cəhəti özünün satira qələminə hədəf etmiş, kəskin şəkildə damğalayırdı. Şairin satirik ifadə üsulu öz sələflərinin və ustadlarının üslublarına zahirən bənzəsə də, orijinallığı və özgünlüyü ilə seçilirdi;
- Onun şeirləri kimi, nəsr əsərlərininin də mövzuları rəngarəng, həyatdan alınan materiallar çoxcəhətli, müşahidələr əhatəlidir. Keçmiş adətlərin tənqidi, yaşadığı zamana, çar hakimiyyətinə mənfi münasibət, mollaların ikiüzlülüyü, din əleyhinə çıxışlar, ərəb əlifbasının çətinliyinə diqqət çəkmək istəyi, müasir dərs metodları, milli-mədəni dəyərlərin aşılanması, çətin kənd güzəranının real şəkildə ifadə olunması və digər mövzular görkəmli yazarın felyeton yaradıcılığında öz əksini tapır;
- Əli Nəzminin həm poetik, həm də publisistik qələmi “Molla Nəsrəddin” jurnalı səhifələrində getdikcə püxtələşmişdir. O, “Molla Nəsrəddin” jurnalının yazı üslubunu və ictimai-ədəbi mövqeyini mənimsəməyə çalışırdı;
- Qələmə aldığı felyetonların məzmununun mükəmməl və cəzbedici olması bu yazıların özünəməxsus istək və həvəslə oxunmasına, yayılmasına və təsir gücünə yardımçı olur; O,

felyetonlarında əsas hadisəni çox zaman obrazların qarşılıqlı münasibətində, onların öz dili ilə verir.

**Tədqiqatın elmi yeniliyi**. Aşağıdakıları tədqiqatın elmi yenilikləri hesab etmək olar:

- Dissertasiyada ilk dəfə olaraq sistemli, zaman inkişafı üzrə realist Azərbaycan ədəbiyyatının güclü qolu olan satira və felyeton janrı Əli Nəzminin yaradıcılığı əsasında tədqiq olunmuşdur;
- Yaşadığı dövrün mədəni-mənəvi proseslərinə Əli Nəzminin vətəndaş münasibətinin təzahürü üzə çıxarılmışdir;
- "Keçmiş günlər" əsəri ilk dəfə geniş şəkildə tədqiq olunaraq elmi-filoloji baxımdan dəyərləndirilmişdir.

**Tətqiqatın nəzəri və praktiki əhəmmiyyəti.** Tədqiqatın nəticələrindən Azərbaycan ədəbiyyatı tarixinə həsr olunmuş tədqiqatlarda nəzəri mənbə kimi, ali məktəblərin filologiya fakültələrində tədris vəsaiti kimi, eləcə də orta məktəbin yuxarı siniflərində ədəbiyyat fənnindən yardımçı vəsait kimi istifadə oluna bilər.

Araşdırmanın nəticələri müqayisəli ədəbiyyatşünaslıqla bağlı araşdırmalar aparan mütəxəssislər üçün də qaynaq rolunu oynaya bilər.

**Dissertasiya işinin aprobasiyası və tətbiqi.** Dissertasiyada irəli sürülən fikir və mülahizələr elmi konfranslarda, seminarlarda, həmçinin ölkəmizdə və xaricdə dərc olunmuş məqalələrdə öz əksini tapmışdır.

**Dissertasiyanın işinin yerinə yetirildiyi təşkilatın adı**. Dissertasiya işi Gəncə Dövlət Universitetinin "Azərbaycan və dünya ədəbiyyatı" kafedrası.

**Dissertasiyanın işinin strukturu və ümumi həcmi.** Dissertasiya Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən qoyulan tələblərə uyğun qaydada yazılmışdır. Dissertasiya giriş (8699 şərti işarə), hər biri iki paraqraf olmaqla üç fəsil (birinci fəsil – 82 828 ş.i., ikinci fəsil – 71 445 ş.i., üçüncü fəsil – 58493 ş.i.), nəticə (6134 ş.i.) və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

Dissertasiyanın ümumi həcmi 227 599 şərti işarədir.

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

Tədqiqatın **"Giriş"** hissəsində mövzunun aktuallığı əsaslandırılır, problemin öyrənilmə səviyyəsi, obyekti və predmeti, məqsəd və vəzifələri, tədqiqat metodları, müdafiəyə çıxarılan əsas müddəalar, araşdırmanın elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti şərh olunur.

**“XX əsr Azərbaycan tənqidi realizminin görkəmli nümayəndəsi”** adlanan I fəslin I paraqrafı **“XX əsrin əvvəllərində Azərbaycanda ədəbi mühit, mətbuatın inkişafında yeni mərhələ”** adlanır.

Çoxəsrlik Azərbaycan ədəbiyyatı və mədəniyyəti tarixində XX əsrin əvvəlləri xüsusi bir mərhələdir. Bu əsrin ilk onilliklərində Rusiya, İran və Türkiyədə baş vermiş hadisələr – Rusiyadakı 1905 və 1917-ci illər inqilabları, Birinci Dünya müharibəsi, İrandakı Məşrutə inqilabı, Türkiyədəki Gənc türklər hərəkatı həmin ölkələrdə olduğu kimi, Azərbaycanın da siyasi-iqtisadi həyatına təsir göstərmiş, mədəni-ədəbi həyatına, xüsusilə ədəbiyyatına təsirsiz qalmamışdır.

Bu illər Azərbaycanın tarixində olduğu kimi, ədəbiyyatında da bir çox yeniliklərin meydana gəlməsi ilə yadda qalır. Ən başlıcası bədii ədəbiyyat klassik ənənələrdən fərqli istiqamətlərdə inkişaf etməyə başlayır, xalq həyatının əks etdirilməsi və gələcək taleyinin müəyyən olunması bədii sözün əsas mövzularına çevrilir. Bu illərin ədəbi-bədii mənzərəsini ümumiləşdirən akademik İsa Həbibbəyli yazır: *“XX əsrin əvvəllərində Azərbaycan ədəbi-ictimai mühitində ədəbi-mənəvi renesans prosesləri yaşanmış, təzə əsrin yeni tipli ədəbiyyatı yaranıb inkişaf etmişdir”*[17]. Məhz bu mərhələdə Azərbaycan ədbiyyatında ədəbi-ictimai mühitin fövqünə qalxmağı bacaran adlı-sanı yazıçılar, eyni zamanda ədəbi cərəyanlar formalaşır, azərbaycançılıq və vətənçilk ideyaları genişlənərək ümummilli ideallara, cəmiyyəti islah edib xalqı milli istiqlala çatdırmaq ali məqsədə çevrilir.

---

[17] Həbibbəyli, İ. Azərbaycan ədəbiyyatında tənqidi realizm və romantizm epoxası // “Azərbaycan ədəbiyyatı tarixi”. – Bakı: Elm, – c.6. – 2022, – s. 5

Son araşdırmalarda XX əsrin əvvəllərindəki Azərbaycan ədəbiyyatı aşağıdakı kimi təsnif olunur: 1.Tənqidi realizm; 2. Maarifçi realist ədəbiyyat; 3. Romantizm; 4. Sentimentalizm.

Başda Cəlil Məmmədquluzadə (1869-1932) olmaqla Mirzə Ələkbər Sabir (1862-1911), Əli Nəzmi (1878-1946), Əliqulu Qəmküsar (1880-1919), Ömər Faiq Nemanzadə (1872-1934), Əbdürrəhim bəy Haqverdiyev (1870-1933), Üzeyir bəy Hacıbəyli (1885-1948), Mirzəəli Möcüz Şəbüstəri (1873-1934), Bayraməli Abbaszadə (1859-1924), Yusif Vəzir Çəmənzəminli (1887-1943), Əli Razi Şamçızadə (1886-1938), Əliabbas Müznib (1882-1938) və başqalarının təmsil olunduqları tənqidi realizmin həm poeziya, həm nəsr, həm dram, həm də publisistika janrlarında olan əsərlərində həyat materialları *"tipik şəraitdə tipik obrazların vasitəsi ilə mövcud cəmiyyətin alt və üst qatları açılıb göstərilmiş və bədii cəhətdən ümumiləşdirilmişdir."*[18]

XX əsrin əvvəllərində tənqidi realizmlə yanaşı maarifçi-realist ədəbiyyat da öz inkişafında çiçəklənmə mərhələsi keçirmiş, cəmiyyəti maarifləndirərək islah etmək, elm və tərbiyə yolu ilə dəyişdirməyin mümkünlüyünə inanan qüdrətli qələm sahibləri yetişmişdi. Bu yazıçılar həm poeziya, nəsr, dramaturgiya, həm də publisistika sahəsndə qələmlərini sınayır, dövrün tələblərinə uyğun olan dəyərli əsrlər yaradırdılar.

Bu dövrün inkişafında mətbuat və teatr faktorunun mühüm rol oynadığı *"maarifçi realizm yeni bir mərhələyə daxil olmuş, maarifçi-realist yazıçılar ədəbi prosesi "məktəbə dəvət"dən "məktəbin nicat yolunu göstərməsinə" doğru inkişaf missiyasını həyata keçirməyə başlamışdılar"* .[19]

Tənqidi realistlərdən fərqli olaraq, maarifçi realistlər keçmişin və indiki zamanın tənqidinə o qədər aludə olmadıqları kimi, romantiklər kimi gələcəyin xəyallarına da məftun deyildilər. Onlar daha çox adi, məişət problemlərini qələmə alır, *"gələcəyi yaratmaq üçün hər kəsdən, hər şeydən əvvəl məktəbə müraciət edirdilər.*

---

[18] Həbibbəyli, İ. Azərbaycan ədəbiyyatında tənqidi realizm // "Azərbaycan ədəbiyyatı tarixi". – Bakı: Elm, – c.6. – 2022, – s. 228

[19] Həbibbəyli, İ. XX əsrin əvvəlləri Azərbaycan maarifçi-realist ədəbiyyatı // "Azərbaycan ədəbiyyatı tarixi". – Bakı: Elm, – c.6. – 2022, – s. 41

*Məktəbi nəinki mədəniyyət, intibah üçün, hətta ictimi quruluşu düzəltmək üçün də əsas vasitə sayırdılar. Məktəbin əhəmiyyətini həddindən artıq böyüdür və qurtuluş yolunu burada görürdülər”*[20].

Qeyd edək ki, XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatında tənqidi və maarifçi realizmləri yanaşı romantik ədəbiyyat da inkişaf etmiş, romantizm bir ədəbi cərəyan kimi formalaşmışdır. Son araşdırmalarda gəlinən nəticə bundan ibarətdir ki, *“Azərbaycan ədəbiyyatında romantizm ədəbi cərəyan kimi 1906-1920-ci illər arasında fəliyyət göstərmişdir.”*[21]

Tənqidi və maarifçi realizmindən fərqli bədii forma və üslublarda inkişaf edərək zənginləşən XX əsr Azərbaycan romantizminin əsas simaları Əli bəy Hüseynzadə (1864-1940), Məhəmməd Hadi (1879-1920), Hüseyn Cavid (1882-1941), Abbas Səhhət (1874-1918), Abdulla Şaiq (1881-1959), Səid Səlmasi (1887 - 1909) hesab olunur. Son tədqiqatlarda İbrahim Tahir Musayev və Əbdülxaliq Cənnəti də XX əsrin əvvəllərində yazıb-yaratmış romantik sənətkarlar sırasına daxil edilir, onlarn lirik əsərləri və ictimai məzmunlu şeirləri XX əsrin əvvəllərindəki ədəbi mühitin qiymətli nümunələri kimi təhlil olunur .[22]

Ədəbi irslərində poeziya və daramaturgiya üstünlük təşkil edən, yaradıcılıqlarında klassik şeirin, demək olar ki, bütün janrlarından bəhrələnən, bəzən xalq şeiri formalarına da müraciət edən romantiklərin yaradıcılığı ilə Azərbaycan şeirinə ilk dəfə olaraq sonet, marş, şərqi, türkü, mənsur şeir kimi janrlar daxil olmuş, məhz onların yaratdığı əsərləri ilə ədəbiyyatımızda mənzum faciənin əsası qoyulmuşdur.

Son araşdırmalarda Abdulla bəy Divanbəyoğlu (1883-1936), İbrahim bəy Musabəyov(1881-1936), Nemət Bəsir (1889-1942), Ələkbər Qərib Abbasov (1893- ?), Əli Səbri Qasımov (1882-1983)

---

[20] Mir Cəlal. XX əsr Azərbaycan ədəbiyyatı / Mir Cəlal, F.Hüseynov. – Bakı: Maarif, – 1982. – s. 233

[21] Həbibbəyli, İ. Azərbaycan ədəbiyyatında tənqidi realizm və romantizm epoxası // “Azərbaycan ədəbiyyatı tarixi”. – Bakı: Elm, – c.6. – 2022, – s. 577

[22]Qəribli, İ. Əbdülxaliq Cənnəti // “Azərbaycan ədəbiyyatı tarixi”. – Bakı: Elm, – c.6. – 2022, – s. 791-805; Musayev, İ. Əbdülxalıq Cənnəti // “Azərbaycan ədəbiyyatı tarixi”. – Bakı: Elm, – c.6. – 2022, – s. 805-818

sentimentalizm ədəbi cərəyanına aid edilərək Azərbaycan ədəbiyyatı tarixinə salınmışdır.[23]

XX əsr Azərbaycan ədəbiyyatşünaslığını isə, əsasən Firidun bəy Köçərli (1863-1920), Abdulla Sur (1882-1912) və Seyid Hüseyn (1887-1938) təmsil etmişlər.

Ədəbi mühiti mətbuatsız təsəvvür etmək çətin olduğundan, XX əsrin əvvəllərində çıxan, səhifələrində ictimai-siyasi məqalələrlə yanaşı, mütəmadi olaraq ədəbi-bədii yazılar da dərc edib ədəbi mühitin formalaşmasında xidmətləri olan bəzi mətbuat orqanları barədə qısa məlumat vermək zəruri hesab edilmişdir.

Məlum olduğu kimi, XX əsrin əvvəllərində ilk azərbaycandilli qəzet 1903-1905-ci illərdə Tiflisdə işıq üzü görən, naşiri və redaktoru Məhəmmədağa Şahtaxtlı olan (1846-1931) "Şərqi-Rus" qəzeti olmuş, ondan sonra Bakıda, İrəvanda bir sıra mətuat orqanları nəşr olunmuşdur.

Dissertasiyada ədəbi mühitin formalaşmasında mühüm xidmətləri bu mətbuat orqanlarından "Həyat", "İrşad", "Tərəqqi", "Tazə həyat", "İttifaq", "Səda" "İqbal", "Açıq söz", "Bəsirət", "Azərbaycan" və s. qəzetlər, "Füyuzat" jurnalı haqqında məlumat verilmiş, həmin mətbuat orqanlarının ideya istiqaməti, orada iştirak edən yazıçı, şair və publisistlərin ədəbi mühitin formalaşmasındakı rolundan bəhs olunmuşdur.

Tədqiqat işində eyni zamanda, XX əsrin əvvəllərindəki satirik mətbuatın ən gözəl nümunəsi olan "Molla Nəsrəddin" (1907-1931), bundan əlavə "Məzəli" (1915-1916), "Bəhlul" (1907), "Zənbur" (1909-1910), "Tuti" (1914-1917), "Babayi-Əmir" (1915-1916), "Mirat" (1910), "Arı" (1910-1911), "Kəlniyyət" (1912-1913) və İrəvanda çıxan "Lək-lək" (1914) jurnallarından da ümumi şəkildə bəhs edilmişdir.

XX əsrin əvvəllərindəki ədəbi mühit barədə deyilənləri ümumiləşdirərkən belə bir qənaətə gəlinir ki, həqiqətən də bu illər Azərbaycan ədəbiyyatı və mətbuatında yeni bir intibah mərhələsi olmuş, ədəbiyyatın istər poeziya, istər nəsr və darmaturgiya, istərsə də publisitika və bədii tərcümə sahəsində ən gözəl nümunələri

[23] Azərbaycan ədəbiyyatı tarixi: [10 cilddə] / – Bakı: Elm, – c.6. – 2022, – 1168 s.

meydana gəlmişdir. Bu dövrdə bədii söz, millətin tərəqqi və təkamülünə xidmət etmiş, azadlıq, bərabərlik, milli özünü dərk, ana dili, maarif və mədəniyyətə çağırış, zülmə, zalıma, cəhalətə qarşı nifrət mövzuları ədəbiyyatın baş və aparıcı mövzuları olmuşlar.

I fəslin **"Əli Nəzminin həyatı, əsərlərinin nəşri və tədqiqi tarixi"** adlanan II paraqrafında Əli Nəzminin Gəncə şəhəri yaxınlığında Sarov kəndində 1879-cu ildə yoxsul kəndli ailəsində doğulması, keçirdiyi əzablı uşaqlıq illəri, işləmək üçün Buxara və Səmərqənd şəhərlərinə səfər etməsi, orada qarşılaşdığı insanlar və hadisələrdən aldığı təəssüratlar, burada ilk dəfə mətbuatla qarşılaşması və keçirdiyi hisslər və ilk həyat təcrübələri haqqında geniş məlumat verilmişdir.

Əli Nəzmi mətbuat aləminə Tiflisdə çıxan "Şərqi-Rus" qəzetinə göndərdiyi xəbər-məktublarla gəlmişdir. Belə ki, onun bir qədər satirik məzmun daşıyan "Zərafətdən bəhrə" və "Cürbəcür əhval" adlı kiçik həcmli yazıları "Şərqi-Rus"un 1904-cü ildə çıxan 137-ci nömrəsində "Əli Məhəmmədov (S)" imzası ilə çap olunmuşdur. Qəzetdə müəllifin bir neçə məqaləsi ilə yanaşı "Kənddə ibtida" adlı şeiri də dərc edilmişdir.

1906-cı il aprelin 7-də Tiflisdə nəşrə başlayan "Molla Nəsrəddin" jurnalının 4-cü nömrəsində "Elan" adlı kiçik felyetonu dərc olunan Əli Nəzmi jurnalın səhifələrində "Əlidəyənəkli", "Cüvəllağı", "Qanacaqsız" və başqa gizli imzalarla bir çox felyeton və məqalələr çap etdirir. Bir il sonra, 1907-ci ildə Sərab kəndindəki evi qarət edilən Ə.Nəzmi Gəncəyə köçür və həmin ildə "Molla Nəsrəddin" jurnalında onun "Həcəmətverdi" imzası ilə "Cavab: Çayda çapana" adlı ilk satirik şeiri dərc olunur[24].

O, "Bəhlul" və "Zənbur" jurnalları, "Tərəqqi" qəzetində "Şəmşirək", "Şəmşir", "Əli Məhəmmədzadə sərabi" imzaları ilə şeir və məqalər nəşr etdirməklə yanaşı "Molla Nəsrəddin" jurnalı ilə də əməkdaşlığını davam etdirirdi.

Mətnşünas alim, dosent Elmira Qasımova qeyd edir ki, *"Əli Nəzmi mollanəsrəddinçilər arasında "bəxti gətirən" şair olmuşdur.*

---

[24] Qəribli, İ. Məhəmməd Hadi. Azərbaycan ədəbiyyatı: dünən və bu gün / İ.Qəribli. – Bakı: Apostrof-A, – 2022, – s. 445.

*Əsərləri əsasən bir qayda olaraq gizli imza və imzasız nəşr olunan başqa mollanəsrəddinçi şairlərlə müqayisədə yaradıcılığının toplanıb nəşr edilməsi tədqiqatçı və mətnşünaslar qarşısında həllolunmaz mürəkkəblik yaratmamışdır”.*[25]

1914-cü ildə “Məzəli” jurnalının redaktoru Haşım bəy Vəzirov onu Bakıya, jurnalın redaksiyasına işləməyə dəvət etmiş, Əli Nəzmi maddi sıxıntılarını, Bakıda dolanışığının çətin olacağını nəzərə alaraq təklifi qəbul edə bilməmiş, lakin jurnalla əməkdaşlıq edərək 1915-ci ildə çıxan 2, 6 və 8-ci nömrələrində “..O..” imzası ilə bir neçə şeir və “Tərbiyə, yaxud “Zavallı Məmiş”, “Şeyxin pişiyi”, “Arvad məsələsi” adlı məqalələr dərc etdirmişdir.

1915-ci ildə “Məzəli” jurnalının 2-ci nömrəsində Ə.Nəzminin “Pul” adlı yeddi bəndlik satirası çap olunur. Akademik İsa Həbibbəyli onun ilk dəfə olaraq “Pul” satirasına görə 20 manat qonorar aldığını qeyd edir .[26]

Əli Nəzmi 1915-1917-cı illərdə “Məzəli” jurnalı ilə yanaşı, Bakıda çıxan “Babayi-Əmir”, “Tuti”, “Dirilik” jurnallarında da əsərlərini çap etdirir.

Ə.Nəzminin 1920-ci ilə qədər əsərlərini ən çox dərc etdirdiyi satirik mətbuat orqanları olmuşdur. “Zənbur” jurnalının 1909-cu il 7-ci nömrəsində çıxan “Nəsihət” satirası ilə bu mətbuat orqanının müəllifləri sırasına qoşulan Əli Nəzminin “Molla Nəsrəddin”dən sonra ən çox əsərlərini çap etdirdiy satirik jurnal “Məzəli”dir. Publisistik əsərlərlə yanaşı, müəllifin 1915-ci il 4-cü nömrədən başlayaraq “...O..” imzası ilə jurnalda iyirmiyə yaxın satirası dərc olunmuşdur.

Maraqlı cəhət budur ki, Əli Nəzmi XX əsrin əvvəllərində satirik mətbuat orqanları ilə yanaşı, ictimai-siyasi, ədəbi qəzetlərdən olan “Tərəqqi” və “İqbal”, “Yeni irşad” qəzetləri, “Məktəb” jurnalı ilə də əməkdaşlıq etmiş, həmin məbuat orqanlarında “Əli Məhəmmədzadə Sərabi”, “Ə.Nəzmi”, “Əli Nəzmi” imzaları ilə

---

[25] Nəzmi, Ə. Keçmiş günlər. Xatirələr / Ə.Nəzmi. Müqəddimə müəl. E.Qasımova – Bakı: Adiloğlu, – 2006, – s. 4

[26] Həbibbəyli, İ. XX əsrin əvvəlləri Azərbaycan yazıçıları. / İ.Həbibbəyli – Bakı: Nurlan, – 2004, – s. 63

“Amali-hürriyyət”, “Bu da bir bahar”, “İthaf”, “Təxmis”, “Məktəb bağçası” adlı ictimai məzmunlu lirik şeirlərini dərc etdirmişdir.

Əli Nəzminin kitablarının nəşri məsələsindən bəhs edən professor Firidun Hüseynov yazır: *“1908-ci ildə Gəncədə Əli Nəzminin “Şərabçı” adlı ilk kitabı çap olunsa da, bu əsər hələlik əldə yoxdur.”*[27] Qedək ki, Əli Nəzmi əsərlərinin böyük bir qismi məhz ədibin sağlığında nəşr edilmişdir. Paraqrafda bu kitablar haqqında ətraflı məlumat verilmişdir. Qeyd edək ki, onun irsinin tədqiqi tarixi, demək olar ki, Azərbaycanda sovet hakimiyyəti qurulandan sonra başlanmış, proses müxtəlif münasibətlərlə müasir dövrümüzdə də davam etməkdədir.

Ə.Nəzmi irsinin tədqiqatçısı, professor F.Hüseynova görə, onun bir şeiri haqqında 1910-cu ildə “Günəş” qəzetində müsbət fikirdən və 1916-cı ilin 21 fevralında “Dirilik” – “Babayi-Əmir” idarəsinin şairə göndərdiyi məktubdan başqa məlumatlar yoxdur.[28] Ümumiyyətlə, ədibin öyrənilməsi tarixini C.Məmmədquluzadənin “Sijimqulunamə” əsərinə yazdığı müqəddimə ilə götürmək doğru hesab olunmuşdur. F.Hüseynov bu barədə yazır: *“1927-ci ildə “Sijimqulunamə”nin çap olunması ilə əlaqədar olaraq C.Məmmədquluzadənin həmin kitaba yazdığı “Məşədi Sijimqulu (Kefsiz)” adlı məşhur müqəddimə Əli Nəzmi yaradıcılığının tədqiqi və qiymətləndirilməsində ilk böyük təşəbbüs idi.”*[29]

Ə.Nəzminin satirik şeirlərini və felyetonlarını küll halında qiymətləndirməyi qarşısına məqsəd kimi qoymayan C.Məmmədquluzadə əsərində şairin yalnız “Molla Nəsrəddin” jurnalnda daha çox “Məşədi Sijimqulu” və “Kefsiz” imzaları ilə çap etdirdiyi bir sıra əsərləri barədə mülahizələrini bildirmişdir.

“Sijimqulunamə” çap olunduqan sonra Əmin Abid “İnqilab və mədəniyyət” jurnalında eyni adlı adlı bir məqalə dərc etdirmişdir.[30]

---

[27] Nəzmi, Ə. Seçilmiş əsərləri / Ə.Nəzmi. Müqəddimə müəl. F.Hüseynov. – Bakı: Yazıçı, – 1979. – s. 17
[28] Hüseynov, F. Əli Nəzmi / F.Hüseynov – Bakı: Gənclik, – 1970. – s. 186-187
[29] Hüseynov, F. Əli Nəzmi / F.Hüseynov – Bakı: Gənclik, – 1970, – s. 187
[30] Abid, Ə. Sijimqulunamə // – Bakı: İnqilab və mədəniyyət, – 1928-ci il, № 3, – s. 48-52

XX əsrin 30-cu illərində Əli Nazim “Ədəbi çığırdaşlarımız”, Abid Şərif “Azərbaycan şura yazıçıları (Əli Nəzmi haqqında)” məqaləlırndə şairin yaradıcılığı haqqında məlumat vermişlər. Qeyd edək ki, Əziz Şərifin “Odlu sətirlər”[31], Məmmədəli Əsəgərovun “Mübariz satirik şair”[32], Əzizağa Məmmədovun “Görkəmli satirik şair”[33], Qulam Məmmədlinin “Əli Nəzmi”[34], Nazim Axundovun “Görkəmli satirik”[35] adlı məqalələrində də şairin ədəbi fəaliyyəti barədə qısa bilgilər verilmişdir.

“Müxtəsər Azərbaycan ədəbiyyatı tarixi”ndə *“dövrün ən gözüaçıq demokratik yazıçılarından biri”* kimi adı çəkilən Əli Nəzmi[36] haqqında Səməd Vurğun yazırdı: *“Öz ömrünün çıçəkli dövrünü sədaqətlə xalq xidmətinə vermiş olan qocaman çair Əli Nəzmi öz kəskin qələmi ilə xatirəsini əbədiləşdirmiş simalardan biridir.”*[37].

Əli Nəzminin “Seçilmiş əsərləri”nin 1959-cu il çapına “Əli Nəzmi” adlı geniş müqəddimə yazan Abbas Zamanov onu klassik ədəbiyyatımızın görkəmli yaradıcılarından biri kimi dəyərləndirmiş, ədəbi irsini təhlil edərək maraqlı mülahizələr irəli sürmüşdür.[38]

Əli Nəzminin həyatı və ədəbi irsinin araşdırılması sahəsində ən çox zəhməti olan isə, filologiya elmləri doktoru, professor Firidun Hüseynovdur. O, Əli Nəzminin əsərlərini toplayıb nəşrə hazırlamaqla yanaşı, onlara ön söz və izahlar da yazmışdır. F.Hüseynov ədibin 1963-cü ildə “Azərnəşr”də çap olunmuş kitabına “Görkəmli satirik”[39], 1979-cu ildə “Yazıçı” nəşriyyatında çıxan kitabına “Həqiqi

---

[31] Şərif, Ə. Odlu sətirlər // Ədəbiyyat qəzeti, – 1948, 12 yanvar

[32] Əsgərov, M. Mübariz satirik şair // Ədəbiyyat qəzeti, – 1951, 9 yanvar

[33] Məmmədov, Ə. Görkəmli satirik şair // Ədəbiyyat və incəsənət, – 1958, № 32

[34] Məmmədli, Q. Əli Nəzmi // Axşam qəzeti, – 1958, № 178

[35] Axundov, N. Görkəmli satirik // Kommunist, – 1958, № 186

[36]Müxtəsər Azərbaycan ədəbiyyatı tarixi / red. M.Arif, H.Hüseynov. − Bakı: EAAzF, − c. 2. − 1944, − s. 164

[37] Vurğun, S. Şairin tabutu önündə // Ədəbiyyat qəzeti, – 1946, 9 yanvar.

[38] Nəzmi, Ə. Seçilmiş əsərləri / Ə.Nəzmi. Müqəddim müəl. A. Zamanov, – Bakı: Azərnəşr, – 1959. – s. 3-16

[39] Nəzmi, Ə. Şeirlər / Ə.Nəzmi. Ön söz müəl. F. Hüseynov, – Bakı: Azərnəşr, – 1963. – s. 3-8

“Molla Nəsrəddin” şairi” adlı müqəddimə yazmışdır.[40] Lakin onun ən geniş araşdırması olaraq, təbii ki, “Əli Nəzminin həyatı və yaradıcılığı” mövzusundakı namizədlik dissertasiyası (1964) və “Əli Nəzmi” (1970) monoqrafiyası xüsusi qeyd edilməlidir.

Paraqraf haqqında fikirlərimizi ümumiləşdirib belə bir nəticəyə gələ bilərik ki, keşməkeşli ömür yolu keçmiş Əli Nəzmi XX əsr realist yazıçıları içərisində xüsusi mövqeyi ilə seçilmiş, müxtəlif mətbuat orqanlarında çalışaraq qələmi və istedadı ilə xalqına xidmət etmiş, zəngin və çoxşaxəli ədəbi irsi layiqincə nəşr olunduğu kimi, tədqiqi sahəsində də müəyyən işlər görülmüşdür.

Dissertasiyanın iki paraqrafdan ibarət II fəsli **“Əli Nəzminin poetik yaradıcılığı”** adlanır. **“Şairin lirikası, şeirlərinin ideya-bədii xüsusiyyətləri”** adlı ilk paraqrafda qeyd olunur ki, Əli Nəzmi ilk dəfə şeir yazmağa Buxaraya getdikdən bir il sonra başlamışdır.

Buxarada ikən hərəkətə gəlib ona şeirlər yazdıran şairlik təbi susmur və Ə.Nəzmi kənd məişətindən, müşahidə etdiyi məişət qayğılarından, insan – təbiət münasibətlərindən bəhs edən şeirlər yazmağa, daha doğrusu, gördüklərini nəzmə çəkməyə başlayır, bununla birtəhər öz başını qatmağa çalışır.

1903-cü ildə dörd hissədən ibarət qələmə aldığı, “Fəsillər və kəndlilər” adlı mənzumədə kənd həyatının, kəndlilərin hər fəslə uyğun yaşadıqları qayğılar təfsilat və aydınlığı ilə öz əksini tapmışdır.

Əli Nəzminin 1904-cü ildə qələmə aldığı “Atanın oğluna vəsiyyəti”[41] şeiri isə onun maarifçi baxışlarının, elmin, maarifin həyatda, insan və cəmiyyətin taleyində oynadığı rola verdiyi qiymətin bədii ifadəsi kimi diqqətə layiqdir.

Elə həmin illərdə Əli Nəzmi qələmə aldığı “Fələkdən giley”, “Şikayət”, “Hürriyətin lüzumu” və digər şeirlərində özünün şəxsində kütlənin gün – güzəranının ağırlığından, dolanışığın dözülməzliyindən şikayətlənir, bu qədər zəhmətin, çalışıb-vuruşmağın qabağında yenə vəziyyətinin əvvəlki kimi kasıblıqda qaldığından acı-acı şikayətlənir.

---

[40] Nəzmi, Ə. Seçilmiş əsərləri / Ə.Nəzmi. Müqəddim müəl. F.Hüseynov, – Bakı: Yazıçı, – 1979. –s. 5-18

[41] Nəzmi, Ə.M . Sijimqulunamə / Ə.Nəzmi – Bakı: Azərnəşr, – 1927. – s. 20-21

“Eylədi” çün şəhri-Tiflis içrə sükna, Şərqi-rus” misrası ilə başlayan şeirində onun səmərəsindən, xalqın istiqbala çatması üçün verəcəyi töhfələrdən söhbət açmışdır. “Fələkdən giley”, ”Şikayət” şeirlərindən fərqli olaraq bu şeirlərdə yüksək əhval-ruhiyyə, gələcəyə ümid dolu baxış aydın görünür.

Daha çox satirik şair və publisit kimi tanınan Əli Nəzmi bütün yaradıcılığı boyu qələmini lirika sahəsində də işlətmiş, daha çox ictimai məzmunlu və əxlaqi-didaktik şeirlərə üstünlük vermişdir.

1906-cı ildə “Bikəs” imzası ilə yazılmış yeddi beytlik “İstibdad” şeirində zülmü, istibdadı lənətləyib:

*Ah, ey nuri-ədələt, qəməri-hürriyyət,*
*Parlayın kim, qapanır dəsti-sitəmlə dəhənim.*
*Çürürsə cismim əgər xaki-siyəh altında,*
*Yenə hürriyyət olur hər əməlim, hər süxənim.*[42]

deyə hürriyyəti tərənnüm edən şair həmin ildə yazdığı “Balam” rədifli yeddi beytlik qəzəlində vətəndaşları öz hüquqları uğrunda mübarizəyə səsləyir, onlarda cəmiyyəti kölə vəziyyətinə salan zəmanəyə qarşı kəskin reaksiyanı görmədikdə əsəbi tonda deyir:

*Başında işləsə yüz min kələk dəyirmanı,*
*Usanma, bəs demə,çax-çax kimi cərəlda, balam.*
*Əlaltı ol, döyül, əl intiqamə qalxızma,*
*Necə babasız oğul, ah çək, zarılda balam.*[43]

Əli Nəzminin gəncəli şair Mirzə Məhəmməd Axundzadənin sürgündə olduğu zaman Tehrandan yazmış olduğu “Nələr çəkdim bü qürbətdə, əzizim” mətləli şeirinə cavab olaraq 1908-ci ildə yazdığı “Əşari-məhzunanə” şeiri, məzmunundan göründüyü kimi, qış fəslində yazılmış və bu əsərdə, qürbət sıxıntıları ilə yanaşı türk dünyasının, xüsusilə türk qadınının üzləşdiyi məşəqqətlərdən də bəhs olunmuş, türk milləti, türk dili və türk elinin durumundan yana narahatlıq ifadə olunmşdur.

“Zənbur” jurnalının 10-cu nömrəsində (1909) çap etdirdiyi “Od tutub odlandı vətən” şeirində azadlığı huriyə bənzədib vətən övladından bu “dilbəri-hürriyyəti” mühafizə etməyə səfərbər olmağa

---

[42] Nəzmi, Ə. Seçilmiş əsərləri / Ə.Nəzmi. – Bakı: Yazıçı, – 1979, – s.24
[43] Nəzmi, Ə. Seçilmiş əsərləri / Ə.Nəzmi. – Bakı: Yazıçı, – 1979, – s. 25

çağıran şair "Şəmşirək" imzası ilə çıxan "Olsun" şeirində (1909, № 11) yazırdı:

*Uzaqlansın qəmü möhnət,*
*Silinsin dideyi-qəflət,*
*Ayılısın xabdən millət,*
*Oyansın, huşyar olsun.*

Əli Nəzminin "Tərəqqi" qəzetinin 144-cü nömrəsində (1909) də "Əli Məhəmməd Sərabi" imzası ilə çap olunmuş "Amali-hürriyyət" və "Bu da bir bahar" şeirləri mövzu və ideyaca bir birinə yaxın əsərlərindən birincisində hürriyyəti istibdadın yox olması üçün başlıca qüvvə hesab edən, istibdad nəticəsində vətən övladlarının "kuhi-biyabanə" düşdüyünü bildirən şair məhz hürriyyət sayəsində vətənin "səhni-gülüstanə" dönəcəyini bildirir.

İkinci şeirdən belə məlum olur ki, gül fəsli, yəni bahar olsa da, bülbülün nəvası hər tərəfi bürüsə də, şairin ürəyi sevinmir.

Onun "Tofiq Fikrətə bənzətmə", "Təxmis", "Məktəb uşağı", "Uşaqlar", "Qadın", "Ey ədalət", "Qəzəl", "Örnək", "Dil məsələsi", "Qadınlarımız", "Vətənim", "Gülür aləm bu gün" şeirlədi də onun lirik üslubda yazdığı əsərlərdəndir. Əli Nəzmi lirikasının gözəl nümunələrindən biri də "İthaf" şeiridir. "Möhtərəm şairimiz Mirzə Ələkbər Sabirin ruhuna" epiqrafı ilə başlanan doqquz bəndlik bu şeir böyük şairin ölümündən bir neçə ay sonra yazılmış, "Yeni irşad" [44] qəzetində dərc olunmuşdur.

Əli Nəzminin "Uşaqlar" və "Məktəb" jurnalında "Əli Nəzmi" imzası ilə dərc etdirdiyi "Məktəb uşağı" şeiri əxlaqi-didaktik mahiyyət daşıyaraq tərbiyə mövzusundadır.

Satirik şeirlərində qadınları hüquqsuz vəziyyətə salan cəmiyyətə qarşı kəskin şəkildə etirazını bildirən Əli Nəzmi lirik şeirlərində tərənnüm üsulunu seçərək qadın nəfəsini "Ey Məsih nəfəs" söyləməklə ölülərə can verən İsa nəfəsinə bənzədən şair "Qadın" şeirində:

*Hürriyyətin yeganə misali-mücəssəmi,*
*Əşar, nitq xaliqəsi, ruh həmdəmi,*
*Ey zəxmdar qəlbinin ən nərm mərhəmi,*

---

[44] Nəzmi, Ə. İthaf // "Yeni İrşad" qəzeti, – 1911, 15 sentyabr, № 24, – s. 3

*Hər illətə əlac və dəhrdə dəva, qadın*[45]

Əli Nəzminin Sovet hakimiyyəti illərində, 1944-1945-ci illərdə yazdığı "Vətənim" və "Gülür aləm bu gün" lirik şeirlərində sosializm cəmiyyətinin Azərbaycan xalqına bəxş etdiyi firavan həyatdan bəhs olunur ki, bu şeirlər zəmanəsi ilə səsləşən əsərlərdir.

Əli Nəzmi daha çox ictimai mövzuların işlənməsinə maraq göstərmiş, təbiətin təsvir və tərənnümü, qadınların taleyi, azadlıq və bərabərlik məsələsi onun lirikasında önəmli yer tutmuşdur.

Bu fəslin ikinci paraqrafı **"Əli Nəzmi "Molla Nəsrəddin ədəbi məktəbi"nin tanınmış simalarından biri kimi; satiralarının əsas mövzu və problematikası"** adlanır.

XX əsrin əvvəllərində artıq kifayət qədər fəal ədəbi qüvvələr fəaliyyət meydanına çıxırdı. 1905-ci il inqilabi hadisələri isə həmin ədəbi qüvvələrin özlərinin fikir və düşüncələrini xeyli sərbəst şəkildə ifadə etmələrinə sosial tarixi şəraitin yaranmasını təmin etdi.

Zamanın nəbzinə, oxucu və yaradıcı qüvvələrin zövqlərinə uyğun olaraq XX əsr Azərbaycan ictimai-ədəbi mənzərəsində aparıcı istiqamətlərdən biri də mollanəsrəddinçilər ədəbi hərəkatı idi. Mollanəsrəddinçi ədəbi qüvvələr əsasən "Molla Nəsrəddin" jurnalının ətrafına toplaşmış və həmin jurnalın səviyyələrində çıxış edirdilər.[46]

Əli Nəzminin "Molla Nəsrəddin" jurnalda iştirakı və mollanəsrəddinçilər ədəbi cərəyanına qoşulması təsadüfi olmayıb, təbii şəkildə baş vermişdir. Belə ki, professor Firidun Hüseynovun yazdığı kimi:

*"1903-cü ildə Tiflisdə "Şərqi-rus" qəzetinin nəşrə başlaması, Azərbaycanın başqa maarifpərvər ziyalıları kimi, Əli Nəzmini də ürəkdən sevindirir. Bu münasibətlə "Kəndə ibtida" (1904) adlı şeirini yazıb "Şərqi-rus"da çap etdirir ki, bu onun ilk mətbu əsərlərindəndir. Bundan sonra Əli Nəzmi "Şərqi-rus" qəzetinin fəal müxbiri olur. 1904-cü ildən sonra C.Məmmədquluzadə, M.Sahtaxtinski (M.Şahaxtlı), Ö.F.Nemanzadə, Abdulla Tofiq (Sur) və başqa qabaqcıl ziyalılarla şəxsən tanış olan Əli Nəzmi xalqın*

---

[45] Nəzmi, Ə. Seçilmiş əsərləri / Ə.Nəzmi. – Bakı: Şərq-Qərb, – 2006, – s. 281

[46] Fərəcova, A. Əli Nəzmi və müasirləri // Respublika Gənclər Konfransının materialları. − Bakı: − 07 oktyabr, −2021, − s. 39-45.

*mədəniyyət və ədəbiyyatının inkişafı yolunda onlarla birlikdə çiyin-çiyinə addımlamağa başlayır".*[47]

Əli Nəzminin yaradıcılıq diapazonu, mövzu dairəsi genişdir. O, cəmiyyətdə mövcud olan hər bir eybəcərliyi, çatışmazlığı, yenilik və tərəqqiyə mane olan sosial-mənəvi cəhəti özünün satira qələminə hədəf edib, kəskin şəkildə damğalayırdı. Şairin satirik ifadə üsulu öz sələflərinin və ustadlarının üslublarına zahirən bənzəsə də, orijinallığı və özgünlüyü ilə seçilirdi. Belə ki, elmi ədəbiyyatda da göstərildiyi kimi:

*"Əli Nəzmi M.F.Axundov (Axundzadə) və M.Ə.Sabir ifşa üsulunu davam etdirərək, çox zaman mənfi surət və tipləri öz "etirafnamə"si yolu ilə ifşa edir. Onun satiralarında hakim təbəqənin nümayəndələri öz mənfur əməllərini bir-bir sayır, ədalətsiz hərəkətlərini biruzə verir, gücsüzlərin başına gətirdikləri müsibətləri öz dilləri ilə nağıl edirdilər."*[48]

Şairin, "Şah", "Olmuşam", "Rəhim xanın Məhəmmədəliyə ərzi-halı", "Yorğunlamışıq", "Qumarın ləzzəti", "Yadi-mazi", "Mənəm", "İdeal" və s. satiraları fikrimizə misaldır.

Əli Nəzminin həm "Molla Nəsrəddin"də, həm də digər mətbu orqanlarda (əsasən də satirik jurnallarda) çıxan satiralarında dövrünün, demək olar ki, bütün yaramazlıqları tənqid və ifşa hədəfinə çevrilmişdir. Professor Kamran Məmmədov şairin tənqid hədəfinə çevrilən ictimai bəlalar və həmin əməllərin törədicilərinə qarşı barışmaz mövqeyi haqda belə söyləyir:

*"Yaralı vətənin vətəndaşların hər cür halı: elmə, sənətə biganəliyi, gecə gündüz kin-küdurətlə gün keçirməsi, ittifaqın, birliyin olmaması, mənəm-mənəmliyin, qoluzorluluğun tüğyanı, alimnümaların cahilliyi, ruhanilərin xalqı zülmətə çəkməsi, hakimlərin Şümrü keçən zülümkarlığı, qadınların "göyə bülənd olan ahi-naləsi", kasıbın, kəndlinin həmişə boş qalan çuvalı, "minbərdə*

---

[47]Mir Cəlal. XX əsr Azərbaycan ədəbiyyatı / M.Cəlal, F.Hüseynov. – Bakı: Maarif, – 1982, – s. 277

[48] Hüseynov, F. "Molla Nəsrəddin" və mollanəsrəddinçilər. / F.Hüseynov. – Bakı: Yazıçı, – 1986. – s. 197

*mollanın, yerdə cibgirin hiyləgərliyi", sənətkarın gülüş mənbəyidir".*[49]

Əli Nəzmi hansı mövzuya və ya ictimai-mədəni problemə toxunmasından asılı olmayaraq, mollanəsrəddinçi şair və publisist olmaqla yanaşı, özünün orijinallığını, qələminin koloritliyini qorumuşdur. Şairin "Beyt", "Oğul və ata", "Məktəb", "Nə idi?", "Evlənmərəm", "Əttövbə", "Köhnələr", "Olmuşam", "Tərbiyət", "Şəm və Pərvanə", "Bizim qız", "Hiss, zövq yox", "Fazələr", "Vəssalam", "Ay kişi!", "Nə üçün?", "Dabanı Çatdaq xalaya", "Balaca felyeton", "Mədəni inqilab", "O malın hanı?" və digər satiralarının hər biri həm maarif və məktəb, həm qadın azadlığı, həm sinfi ayrıseçkilik, həm beynəlxalq irticaya və s. dair konkret bir sosial-tarixi mənzərənin sənətkarlıqla əks olunmuş canlı lövhəsi, mənzərəsidir.

Əli Nəzminin "Molla Nəsrəddin" junalında "Həcəmətverdi", "Məşədi Sijimqulu", "Peşman qoca", "Gəncə cavanları", "Kefsiz" və s. imzalarla çap etdirdiyi satiraları, demək olar ki, bütünlüklə yazılıdığı zamanla səsləşir və "Molla Nəsrəddin" jurnalının ideyaları ilə üst-üstə düşürdü.

Şairin satiralarının əsas mövzuları və başlıca tənqid hədəfləri cəhalət və elmsizlikdən şikayət, istismarçı cəmiyyətin insanı əzən, onun hüquqlarını əlindən alan idarəçilik sisteminə qarşı etiraz, yeniliyə qarşı çıxan, cəmiyyətdəki inkişafı qəbul etməyən köhnəlik və qaraguruhun, dini fanatizmin tənqidi, qadın azadlığına qarşı olan gerizəkalıların, maarif və mədəniyyətə qənim kəsilən zümrələrin ifşası ilə yanaşı, dil məsələsi, əkinçi və fəhlə həyatının təsviri, beynəlxalq imperializmin tənqidi, Şərq ölkələrindəki despotizm və İran mövzusu şairi məşğul edən əsas məsələlədən olmuşdur.

Tədqiqatın **"Əli Nəzminin publisistikası və xatirələri"** adlanan III fəsli iki paraqrafdan ibarətdir. I paraqraf **"Əli Nəzminin felyetonları"** adlanır.

Paraqrafda bildirilir ki, Əli Nəzmi yaradıcılığının ilk nümunələri nəzm əsərləri olsa da, o, mətbuat aləminə "Şərqi-Rus"

---

[49] Məmmədov, K. XX əsr Azərbaycan gülüşü / K.Məmmədov, red. T.Əhmədov. – Bakı: Yazıçı, – 1989. – s. 200

qəzetində “Əli Məhəmmədov (S)” imzası ilə çap etdirdiyi “Zərafətdən bəhrə” və “Cürbəcür əhval” adlı kiçik həcmli məqalələrlə gəlmiş (1904, № 137), “Molla Nəsrəddin” jurnalında ilk olaraq nəsrlə, felyetonları ilə çıxış etmişdir. “Məşədi Sijimqulu”, “Kefsiz” imzaları ilə tanınan Əli Nəzminin görkəmli realist kimi özünü ifadə etməsində felyetonlarının da rolu böyükdür.

Köhnəlmiş adət-ənənələrin tənqidi, çar üsul-idarəçiliyinin amansızlığı, mollaların ikiüzlülüyü, dini fanatizm əleyhinə çıxışlar, ərəb əlifbasının qəlizliyinə diqqət çəkmək cəhdi, yeni dərs metodları və milli-bəşəri mədəniyyətin təbliği, qadın azadlığı, kəndlilərin dözülməz həyat şəraitinin realist şəkilə ifadə edilməsi və başqa rəngarəng mövzular onun felyetonlarının əsasını təşkil edir. Təqdim olunan tədqiqat işində də bu problemlərə həsr olunmuş felyetonlar məzmun, ideya və sənətkarlıq nöqteyi-nəzərindən təhlil olunaraq dəyərləndirilir.

Qeyd edə bilərik ki, onun mənsur əsərləri ideya və sənətkarlıq cəhətdən C.Məmmədquluzadənin felyetonları ilə həmahəngdir. Ə.Nəzminin 1906-1920-ci illər ərzində yazdığı felyetonları arasında “Moizə”, “Mərsiyəxanlar”, “Söhbət”, “Daş”, “Tərbiyə, yaxud zavallı Məmiş”, “Məni sayanı qurd yesin”, “Şərab içmək”, “Gəncə uyezdindən”, “Kəndlilərin məişətindən”, “Maşallah”, “Ay Molla Nəsrəddin əmi”, “Hörmətli Molla Nəsrəddin əmi”, “Üzrüm var”, “Arvad məsələsi”, “Daha düzəldi”, “Vəsvəsə”, “Ata və oğul” (Tərbiyəmizdən), “Ölü tutmaq” kimi felyetonları xüsusi olaraq diqqəti cəlb edir.

Əli Nəzminin nəsr əsərləri falçılıq və quşbazlıq kimi xırda hallardan başlamış, ictimai-inqilabi hadisələrə qədər geniş mövzu dairəsinə malikdir. Onun həcmcə yığcam olan felyetonlarının hər birində, demək olar ki, mühüm bir məsələdən bəhs edilir, əlavə epizod və haşiyələrlə hadisə genişləndirilir, fikir aydınlaşdırılır. Belə yığcamlıq felyetonlarının sadə və eyni zamanda rəngarəng olmasına, yadda qalmasına və daha tez qavranılmasına kömək edir. O, nəsr əsərlərində əsas hadisəni daha çox obrazların bir-birilə münasibətində, onların öz dili ilə təqdim edir. Təhkiyə, mükalimə, sual-cavab, deyişmə, müəyyən şəriət ehkamları (şeytana inanmaq, ölü tutmaq və s.) və digər vasitələrdən ustaca istifadə Ə.Nəzmi

felyetonlarının böyük maraqla oxunmasına, inandırıcı və təsirli olmasına da yardımçı olur.

Müşahidələr göstərir ki, Əli Nəzminin jurnalda dərc etdirdiyi məqalə, felyeton və miniatür əhvalatlar özünün yazı tərzinə, duzlu, məzəli yumoruna görə başqa müəlliflərin nəsr əsərlərindən seçilir. Ədibin bu yaradıcılıq keyfiyyətini Cəfər Xəndan da müşahidə edərək yazmışdır: *"İlk yazısından etibarən "Molla Nəsrəddin"in üslubuna uyğun mövzular seçməyi bacaran yazıçı (Əli Nəzmi), mənalı gülüş və kəskin tənqiddən məharətli surətdə istifadə etmişdir. Beləliklə, təxminən il yarım o, nəsr əsərləri (məşhur felyetonlar) yazmaqla məşğul olur"*[50].

Əli Nəzminin felyetonlarında yığcam deyim tərzi, sətiraltı mükəmməllik, vətəni, milləti üçün gözəl gələcək arzusu öz əksini tapmışdır. Hər gün gördüyü, eşitdiyi və əksəriyyətini əsərlərində tənqid hədəfinə çevirdiyi, satira atəşinə tutduğu mənfiliklərin, nöqsanların, problemlərin aradan qaldırılması ədibin ən böyük arzusu, fəaliyyətinin başlıca məqsədi olmuşdur. Çünki o, dövrünün əksər mütərəqqi fikirli, qabaqcıl övladları kimi xalqının təhsil, maarif, səhiyyə, mətbuat və digər sahələrdə gerilikdən, ətalətdən qurtulmasını, tərəqqi etməsini arzulamış, bunu həyat amalına çevirmişdi. Aradan bir əsrə qədər zaman keçsə də, bu gün də Əli Nəzminin satiraları kimi, felyetonları da aktuallığını saxlamaqdadır.

III fəslin ikinci paraqrafı **"Keçmiş günlər" memuar ədəbiyyatının mükəmməl nümunəsi kimi"** adlanır.

Xatirələr əsasında yazlımış əsərlərin tarixi şəxsiyyətlərin və yazıçıların həyatının öyrənilməsində əvəzsiz rolu vardır. Azərbaycan ədəbiyyatında C.Məmmədquluzadə, Ö.F.Nemanzadə, H.Məmmədquluzadə, A.Şaiq, Ə.Şərif, M.S.Ordubadi və başqalarının neçə-neçə xatirələri XX əsrin ədəbi və ictimai mühitini özündə əks etdirən qiymətli nümunələrdir. *"Bu siyahını C.Məmmədquluzadə, M.Ə.Sabir, H.Cavid və başqaları haqqında olan xatirələr toplularını əlavə etməklə genişləndirmək olar"*.[51]

---

[50] Hacıyev, C. XX əsr Azərbaycan ədəbiyyatı tarixi: Ali məktəblər üçün dərslik / C.Hacıyev, red. M.Cəfərov. – Bakı: Azərbaycan Universiteti, − 1955. − s. 334

[51] Nəzmi, Ə. Keçmiş günlər. Xatirələr / Ə.Nəzmi. Ön söz müəl. E.Qasımova. – Bakı: Adiloğlu, – 2006, – s. 5

Bunlar arasında Ə.Nəzminin “Keçmiş günlər” xatirəsi xüsusilə seçilir. Bu möhtəşəm əsər dövrün 100-dən artıq görkəmli şəxsiyyəti, 40-a qədər qəzet və jurnalının nəşri ilə bağlı materiallar vermişdir ki, bunların əksəriyyəti bu günümüz üçün də aktual fakt və materiallar sayıla bilər.

Hər bir memuar-xatirə müəllifin özünün həyat təcrübəsi, bilavasitə gördüyü, eşitdiyi, şahidi və iştirakçısı olduğu ictimai-siyasi hadisələrə məntiqi, düşüncəsi, təfəkkür və dünya görüşü prizmasından yanaşma üsulu əsasında yaranır. “Keçmiş günlər” əsərinin dəyəri ondadır ki, Ə.Nəzmi hadisələr, şəxsiyyətlər və sair ilə bağlı məlumatların şərhində başqalarının yaddaşına və onlardan eşitdiklərinə əsaslanmır. O, bilavasitə özünün şahidi olduğu, iştirakçısı olduğu hadisələri qələmə alır. Ə.Nəzmi dövr üçün səciyyəvi hadisələri seçib göstərmiş, mövcud həyat həqiqətlərinin təsvirində bədii uydurma və xəyala yol verməmiş, mümkün qədər dəqiqliyə riayət etməyə çalışmış və buna əsasən müvəffəq olmuşdur. İndiyə kimi mətbuat tarixinə dair tədqiqatlarda bu və ya digər fikrin təsdiqi üçün “Keçmiş günlər” əsərinə mütəmadi istinad edilməsi də bundan irəli gəlmişdir.

“Keçmiş günlər” ilk növbədə şairin öz həyatı, yaradıcılığı, ictimai fəaliyyəti, dünya görüşü, bu və ya digər hadisələrə baxışı və mövqeyinin tədqiqi üçün zəngin material verir. Təsadüfi deyil ki, F.Hüseynov Ə.Nəzminin həyat və fəaliyyətinin tədqiqinə həsr etdiyi monoqrafiyasında bütövlükdə şairin “Keçmiş günlər” əsərinə istinad etmiş və ondan etibarlı bir mənbə kimi yararlanmışdır.

“Keçmiş günlər” mənzum xatirəsini şərti olaraq üç dövrə bölmək olar. Bunlardan birincisi şairin anadan olduğu 1878-ci ildən Buxaraya getdiyi 1898-ci ilə qədərki hadisələri – şairin təvəllüd tarixi, uşaqlıq illəri, ailə vəziyyətləri və doğulduğu Sərab kəndi, kənddə yaşayan əhalinin məşğuliyyəti – əhatə edir.

“Xatirələr”in ikinci bölümündə (“Necə oldu ki, mən Buxaraya gerdim”, “Buxaraya vürud”, “Kitab məşğuliyyəti”, “Birinci dəfə qəzetə gördüm”, “Birinci dəfə şeir yazmağım”, “Əski Buxara şəhərini ziyarət”, “Şirbuddin”, “Səmərqəndə səfər”) müəllifin Buxara şəhərinə getməsi, orada keçirdiyi günlər, rastlaşdığı hadisələr, “Sürəyya” və “Hikmət” qəzetləri ilə tanışlığı, Buxara və

Səmərqənddə gördüyü yeniliklər, Uluğ bəy, Şahizində, Teymur məqbərələrini ziyarəti barədə məlumatlar verilmişdir.

"Xatirələr"in şərti olaraq üçüncü bölümü müəllifin Buxaradan yenidən doğma kəndi Səraba qayıtması ilə başlanır və onun Tiflisə səfər edib orada M.Şahtaxtlı, C.Məmmədquluzadə və Ö.F.Nemanzadə ilə tanışlıq illərini əhatə edir. Bu bölməyə daxil edilmiş "Kənddən qaçmaq istəyirəm", "Məni evləndirdilər" başlığı altında verilən yazılar sırf müəllifin tərcümeyi-halı ilə bağlıdırsa, sonrakı bölmələr daha çox ictimai xarakter daşıyır və həmin illərdə baş vermiş bir sıra hadisələri aydın şəkildə dərk etməyə kömək edir.

"Abbas Səhhətin Gəncədə vəfatı", "Qəmküsarın ölüm xəbəri" xatirələri ilə Azərbaycanda 1920-ci ilə qədərki hadisələrə yekun vuran Əli Nəzmi "Oktyabr inqiabı" xatirəsində 1917-ci ildə Rusiyada baş vermiş inqilab haqqında fikirlərini bölüşür, Lenin, Stalin, Kolçak, Vrangel, Denikin kimilərinin adını çəkir və sonda Azərbaycanda 1920-ci il Aprel çevrilişinin bu inqilabın nəticəsi olduğunu bildirir.

Çəkinmədən demək olar ki, təxminən 50 illik bir dövrü əhatə edən, zamanın bir çox hadisələri, şəxsiyyətləri haqqında dolğun məlumat verən Əli Nəzminin "Keçmiş günlər" əsəri ilə müqayisə edilə bilən bir nümunə ilə rastlaşmaq olmur.

"Keçmiş günlər" Azərbaycan memuar ədəbiyyatının ən gözəl incilərindən biridir. Burada təsvir olunan və obyektivliyi ilə seçilən xatirələr təsvir olunan dövrün bir sıra məsələlərinə münasibət bildirmək, mübahisə doğuran problemlərə aydınlıq gətirmək üçün bu gün də əhəmiyyətini saxlamaqdadır.

Tədqiqat zamanı gəlinən nəticələr dissertasiyanın **"Nəticə"** hissəsində səkkiz bənd halında ümumiləşdirilmişdir.

- XX əsrin əvvəlləri Azərbaycan ədəbiyyatında və mətbuatında yeni bir intibah mərhələsi olmuşdur. Ədəbiyyatda tənqidi realizm, maarifçi realizm, romantizm aparıcı metod və cərəyanlar olsa da, sentimentalizm üslubunda da yazanlar olmuş, dövrün istər poeziya, istər nəsr, istər darmaturgiya, istər publisisitika, istərsə də bədii tərcümə sahəsində xeyli dəyərli nümunələri meydana gəlmişdir;
- Dövrün yetirmələrindən biri olan şair, publisist Əli Nəzminin həyat və yaradıcılığını təhlil edərkən məlum olur ki, 1904-cü ildə

"Şərqi-Rus" qəzetində çap etdirdiyi kiçik həcmli xəbərlər və "Kənddə ibtida" adlı şeirlə mətbuat aləminə gəlmişdir. O, "Şərqi-rus" qəzetinin ictimai-ədəbi mövqeyini bəyənmiş, qəzetdə çıxan materialların xalqı çox mətləbdən agah etdiyini, camaatın maariflənməsinə, maarifə doğru üz çevirməsinə səbəb olduğunu dərk etmiş, bir vətəndaş kimi daha da ruhlanaraq ictimai-mədəni düşüncəsində dövrün, zamanın diqtəsindən irəli gələn yeni keyfiyyətlər üzə çıxmışdır;

- Əli Nəzmi lirikasında ictimai mövzuların işlənməsinə daha çox maraq göstərmiş, təbiətin təsvir və tərənnümü, qadınların taleyi, azadlıq və bərabərlik məsələsi aparıcı mövzularından olmuşdur;
- Şairin satiralarının əsas mövzuları və başlıca tənqid hədəfləri cəhalət, və istismarçı idarəçilik sisteminə qarşı etiraz, cəmiyyətdəki inkişafı qəbul etməyən köhnəlik, dini fanatizm, Şərq ölkələrindəki despotizm və İran və s. məsələlər olmuşdur;
- Əli Nəzmi felyetonlarında köhnəlmiş, lakin bir çoxlarının hələ də əxlaq normaları hesab etdikləri, yeni cəmiyyət prinsiplərinə zidd davranış qaydalarını, şüurlarda kök salmış mövhumatı, fanatizmi, nəsildən-nəslə ötürülən geriliyi, savadsızlığı, avamlığı, cahilliyi, ətaləti təsvir etməklə kifayətlənməmişdir. O, həm də xalqı acınacaqlı vəziyyətə salan problemlərin həlli yollarını da diqqətə çatdırmışdır;
- "Keçmiş günlər" əsərində təsvir olunan və obyektivliyi ilə seçilən xatirələr təsvir olunan dövrün bir sıra məsələlərinə aydınlıq gətirmək üçün bu gün də əhəmiyyətini saxlamaqdadır.

**Dissertasiyanın əsas mövzusu və müddəaları müəllifin aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:**


1. Əli Nəzmi və Cəlil Məmmədquluzadə. // − Gəncə: Gəncə Dövlət Universiteti, Elmi xəbərlər (fundamental, humanitar və təbiət elmləri seriyası). − 2019. №3, − səh. 311-316.
2. Əli Nəzminin yaradıcılığının ilk dövrünə dair. // − Bakı: Bakı Slavyan Universiteti, Humanitar Elmlərin Öyrənilməsinin Aktual Problemləri. – 2020. №4, − səh.80-85.

3. Əli Nəzminin "Şərqi-Rus" qəzetindəki fəaliyyətinə dair. // – Naxçıvan: "Naxçıvan" Universiteti, Elmi əsərlər (iqtisadiyyat, tarix, coğrafiya, pedaqogika və psixologiya, riyaziyyat). – 2021. №2, – səh. 99-103.
4. Əli Nəzminin nəsrində təlim və tərbiyə məsələləri. // – Bakı: AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu, Filologiya məsələləri. – 2021 №8, – səh. 408-417.
5. Əli Nəzmi və müasirləri. // AMEA Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyat Muzeyi, Nizami Gəncəvinin anadan olmasının 880 illiyinə həsr edilən Respublika Gənclər Konfransının materialları. – Bakı: – 07 oktyabr, –2021. – səh. 39-45.
6. İnqilabçı satirik şair. // Sumqayıt Dövlət Universiteti, Respublika konfransının materialları, – Sumqayıt: 28-29 oktyabr, – 2021, №6, – səh. 52-56.
7. Əli Nəzminin felyeton yaradıcılığı. // – Bakı: BDU, Dil və ədəbiyyat, Beynəlxaq elmi-nəzəri jurnal. – 2021. №3, – səh. 165-168.
8. Əli Nəzmi yaradıcılığında qadın azadlığı mövzusu. // – Gəncə: Gəncə Dövlət Universiteti, Elmi xəbərlər (fundamental, humanitar və təbiət elmləri seriyası). – 2021. №2, – səh. 279-284.
9. В семье молланасреддинцев. // Межвузовский международный конгресс, Высшая Школа: Научные Исследования. – Москва: – 26 ноября, – 2020, – с. 99-103.
10. Worthy Ally of Great Sabir. // – USA: International Scientific Journal, ISJ Theoretical & Applied Science Philadelphia, – 2021, Issue, 01 Volume: 93. – p. 132-135.





27

Dissertasiyanın müdafiəsi “16” fevral 2024-cü il tarixində saat $14^{00}$-da Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi nəzdində fəaliyyət göstərən ED 1.31 - Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: Bakı şəhəri, İstiqlaliyyət küçəsi, 53. AZ 1001.
Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi.

Dissertasiya ilə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat “15” yanvar 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 07.01.2024

Kağızın formatı: A5

Həcm: 38 803

Tiraj: 100